BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 ***Humanitar elmlər seriyası*** ***2015***

ƏDƏBİYYATŞÜNASLIQ

47.09.09 – Müxtəlif ölkələrin və xalqların ədəbiyyatı tarixi
UOT 821 (091)

AVROPA ƏDƏBİYYATINDA QADIN AZADLIĞI PROBLEMİ

F.S.ZÜLFÜQAROVA
ARPDİA
farqanazulfuqarova@mail.ru

Məqalədə ingilis ədəbiyyatında qadının ictimai problemindən bəhs edilir. XX əsrin birinci yarısında yaşayıb yaratmış ingilis yazıçısı Con Qolsuorsinin yaradıcılığında qadına münasibət problemi geniş yer tutur.

O, Böyük Britaniyanın, insanlarının sosial, ictimai-siyasi və elmi-fəlsəfi həyatından bəhs etmişdir. Bu problemlirin əksəriyyəti qadına həsr edilmişdir.

Məqalədə ingilis ədəbiyyatının tipoloji əlaqələrinə də toxunulmuşdur.

Açar sözlər: *Qərb, qadın, ictimai, problem, ingilis ədəbiyyatı, Şərq*

Qərb ictimai-siyasi və elmi-fəlsəfi fikrində qadının rolu çox zəngin ədəbi-bədii fəaliyyətə malikdir. “Avropa ədəbiyyatında qadın azadlığı problemi” adlı bu məqalədə istedadlı ingilis yazıçıları Con Qolsuorsi, Etel Lilian Voyniç, Oskar Uayld, Cozef Konradın əsərlərindəki qadın azadlığı və ədəbiyyat mövzusundan bəhs edilir.

Qərb düşüncəsində qadın azadlığı humanizm, yəni insanpərvərlik ideyalarının pərvəriş tapmağa başladığı İntibah dövründən etibarən ədəbiyyat və incəsənətin ən başlıca mövzusuna, leytmotivinə çevrilib. Kilsə qadının azadlığı, böyüklüyü, gözəlliyi ideyasını heç cür qəbul edə bilmir, buna özünün cəmiyyətdəki nüfuzunun sona yetməsi kimi baxırdı. Bir neçə əsrlik qarşıdurmada milyonlarla adam inkvizisiya tonqalında yandırılsa da, azad insan, qadın düşüncəsi bu mübarizədə qalib gəldi və çağdaş Qərb ictimai-siyasi, elmi-fəlsəfi fikrindəki müxtəlif qadın konsepsiyalarına gətirib çıxardı.

Qərb ictimai-siyasi, elmi-fəlsəfi fikrində qadının rolu dedikdə, ilk növbədə Avropada qadın azadlığı və ədəbiyyatdan, Qərb ictimai-siyasi və elmi-

fəlsəfi fikrində, bədii-estetik sahələrdə qadının rolundan söhbət açılır. Qadının azadlığı onun cəmiyyətdə fikir söyləməyi bacarması, sərbəst düşünə bilməsi, azad fikir söyləməyi, azad yaza bilməyidir. Azadlıq, xüsusilə sənətkar yaradıcı qadınlar üçün son dərəcə önəmlidir. Azadlıq, yaradıcılığı sərbəst buraxır. Şeir, nəsr, poeziya zehni azadlığa bağlıdır. Zehni azadlıq isə maddiyyata bağlıdır. Maddi ehtiyaclar qadın üçün dözülməzdir. Çünki o, nə isə yazıb-pozursa, yəni yaradıcılıqla məşğuldursa, hər şeydən öncə onun maddi ehtiyacları ödənilməlidir. Ümumiyyətlə, qadın heç bir kişidən asılı olmamalıdır. Asılılıq isə qadını çıxılmaz vəziyyətə sala bilər; köləliyə, oğurluğa, əxlaqsızlığa, ölümə-intihara belə gətirib çıxara bilər.

XIX əsrin sonu və XX əsrin əvvəllərində ingilis ədəbiyyatında çox mürəkkəb ədəbi və ideoloji mübarizələr olmuşdur. Bu illərdə müxtəlif ədəbi cərəyanlar yaranmış və həmin cərəyanlar arasında ciddi yaradıcılıq münaqişələri baş vermişdir. Bu dövrdə ingilis ədəbiyyatında ictimai həyata fəal müdaxilə etməyə çalışan yazıçıların meydana gəldiyinin şahidi oluruq. Onlar öz əsərlərində yeni problemlər, yeni mövzular ortaya atırdılar. Belə aktual mövzulardan biri də qadın problemidir. İngilis ədəbiyyatında mövcud olan müxtəlif ədəbi cərəyanlar içərisində iki əsas cərəyan - realizm və dekadentçilik xüsusilə fərqlənirdi. Burjua cəmiyyətinin və mədəniyyətinin çürüməsi prosesi dekadent sənətində öz əksini tapmışdı. Realist ədəbiyyatda isə kapitalizm cəmiyyətində baş verən sosioloji təbəddülatların, yeni dünyagörüşlərin kapitalizm ilə proletariat arasındakı sinfi ziddiyyətlərin inikasına rast gəlirik. Bu yazıçıların ictimai romanlarında kapitalizmin ziddiyyətləri və saxtakarlıqları, geniş xalq kütləsinin ictimai narazılıqları qabarıq şəkildə təsvir olunur.

Dekadentçilərin özləri də əslində, burjua cəmiyyətindən narazı idilər. Qeyd edək ki, dekadentçilik cərəyanı əvvəllər modernist cərəyan adı altında nəzərdə tutulurdu. XX əsrdə yaranan ədəbi cərəyanlardan ən məşhuru modernizmdir. Bu söz yəni modernizm ingilis sözü olub, mənası müasir deməkdir. Dekadentçilik isə fransız sözüdür, mənası düşkünlük deməkdir. O zaman Avropa ədəbiyyatında yaranan və oxucularda da düşkünlük əhvali-ruhiyyəsi yaradan əsərlərin hamısına dekadent ədəbiyyat deyilirdi. Həmin əsərlərin ideyası ondan ibarət idi ki, yaşadığımız həyat ölümdən də qorxuludur. Rus ədəbiyyatında bu cərəyanın nümayəndəsi olan Balmont belə yazırdı: "Mən insanları istəmirəm, mənim yeganə vətənim boş qəlbimdir".

Modernistlər iddia edirdilər ki, bu dünyada insan alçaldılır və təhqir edilir. Belə yaşamaqdansa ölmək yaxşıdır. "Ümumiyyətlə, modernistlərə görə məs: ekzistensialist yazıçıların fikrincə bu dünyada insanın dayağı yoxdur. Onun yeganə yolu öz ürəyinə sığınmasıdır."

Postmodernizm anlayışında postmodernistlər də bu fikirlərlə razıdırlar. İnsanlar alçaldılır, lakin bunlara dözülməlidir. Onların fərqi belə idi: I. Həyatın dözülməzliyi təsdiq edilir, II. Bu dözülməzliyi qəbul etmək yəni, dözmək lazımdır. Lakin onların bir qismi burjua cəmiyyəti ilə mübarizə əvəzinə həyatdan uzaqlaşmaq, ictimai hadisələrin fövqündə dayanmaq kimi saxta ideyalar irəli

sürürdülər. Başqa bir qrup isə naturalizm çirkabında çabalayır və insanın təbiətində, fitrətində çirkinliklər axtarırdılar. Simvolistlər də burjua cəmiyyəti ilə barışmırdılar. Onlar burjua fərdiyyətçiliyi ilə zəhərlənmişdilər. Simvolistlər real həyatla əlaqəni tamamilə kəsməyi tövsiyə edirdilər.

İngilis yazıçısı Oskar Uayld (1859-1900) göstərirdi ki, sənət həyatdan yüksəkdə dayanmalıdır. O, yazırdı: "Təbiət bizi xəlq edən müqəddəs ana deyil, əksinə, o, özü bizim yaratdığımız aləmdir". Oskar Uaylda görə sənətin tələbləri əbədidir. Qadının əxlaqi tələbləri isə cəmiyyətin ahənginə uyğun olaraq dəyişir. O, məşhur ədəbi tənqidçi kimi "Şeirlər kitabı" (1881), "Etiqad və Nihilistlər melodramı" (1882), "Paduya hersoqiniyası" (1883), "Dorian Qreyin portreti" (1890), "Ledi Uindermirin yelpiyi" (1892), "İdeal ər" (1895), "Ciddi olmağın vacibliyi" (1895) əsərlərinin müəllifi kimi qadın haqları və hüquqlarını müdafiə etmişdir. Beləliklə, simvolistlər sənəti həyatın real məsələlərindən ayırır, onun tərbiyəvi və əxlaqi rolunu heçə endirir, yalnız əyləncə vasitəsinə çevirirdilər. Onların yaradıcılığı və estetik proqramları ziddiyyətlərlə dolu idi.

İngilis naturalistləri, əlbəttə, fransız naturalistləri kimi geniş və zəngin bir ədəbi cərəyan yarada bilmədilər. Onlar öz əsərlərində ingilis yoxsullarının, qadınların, London müflislərinin həyat tərzinə müraciət edirdilər. Təsvir etdikləri qadınların, proletariatın halına acımaqdan başqa bir iş görə bilmirdilər. İngilis naturalistləri proletariatın tarixi rolunu başa düşmür və onun gələcəyini görmürdülər.

Bu dövrdə ingilis ədəbiyyatında neoromantizm adlanan yeni bir ədəbi cərəyan da meydana çıxır. Həmin cərəyanın nümayəndələri macəra romanlarına daha çox meyl edirdilər. Onlar sərgüzəştlərlə dolu ekzotik əsərlərin yaranmasına çalışırdılar. Mayn Ridin və Fenimor Kuperin əsərlərini buna misal göstərə bilərik. Bu ədəbi cərəyanın ən görkəmli nümayəndəsi Stivenson (1850-1894) olmuşdur. Stivenson öz əsərlərində qadınların yeni bir aləmini təsvir edirdi. Onun "Dəfinələr adası", "Oğurlanmış", "Katriona", "Qara ox" və s. əsərlərində qeyri-adi və cazibədar qadın həyatından danışılır. Bu romanlarda burjua cəmiyyətinin müxtəlif ictimai təbəqələrinin nümayəndələri iştirak edir. Stivensonun əsərlərində sirli hadisələr, müxtəlif xarakterli qadınlar təsvir edilir.

Stivensonun yolunu Cozef Konrad (1857-1924) davam etdirmişdir. C.Konrad milliyyətcə polyakdır. "Lord Cim", "Gənclik", "Qasırğa", "Qəzəb" kimi romanları yazıçıya ədəbi şöhrət qazandırmışdı. C.Konradın tərənnüm etdiyi qəhrəmanlarının taleyi dərin psixologizm və ictimai məsələlərlə birləşir. C.Konradın qəhrəmanları dinclik və sakitlik bilməyən üsyankar zəhmətkeşlərdir. Qadının yalqızlığı, tənha qalması C.Konradın əsərlərinin əsas mövzusudur. Bu qəhrəmanların çoxu burjua cəmiyyətində tək qalmış adamlardır. Onlar tropik meşələrdən keçir, dəhşətlərlə qarşılaşırlar. Əsas düşmənləri isə burjua cəmiyyətinin Allahı olan qızıldır. C.Konradın qadın qəhrəmanları hər yerdə bu maneələrə rast gəlir, lakin öz insani və qadınlıq xüsusiyyətlərini qoruyub saxlayırlar.

Neoromantizm yolunu sonralar Konan Doyl, Kiplinq kimi yazıçılar

davam etdirdilər. Onların əsərlərində detektiv ünsürlərə və müəyyən mənada müstəmləkəçilik siyasətinin idealizəsinə də rast gəlirik.

XIX əsrin sonu və XX əsrin əvvəllərində ingilis ədəbiyyatında realizm daha geniş yayılır. Tənqidi realizm keçən əsrin 80-ci illərində fəhlə hərəkatının inkişafı ilə əlaqədar olaraq yenidən dirçəlir.

Fəhlə həyatını realist planda təsvir etmək təşəbbüsünə ilk dəfə M.Qarknessin "Şəhərli qız" əsərində rast gəlirik. Yazıçı bir centlemen tərəfindən aldadılmış və tərk edilmiş qızın taleyini təsvir edir. M.Qarkness özü sosial-demokrat fraksiyasının üzvü idi. Fəhlələrin, qızların həyatı ilə çox maraqlanırdı. Öz əsərlərində qadınların, fəhlələrin həyatını təsvir etməklə yanaşı onların zəhmətsevərliyini də göstərirdi.

Bu illərdə fəaliyyət göstərən yazıçılardan danışarkən mütləq Etel Lilian Voyniçin də (1864-1960) adını çəkməliyik.

Etel Lilian Voyniç (1887-1889) qadın yazarı kimi rus inqilabçıları ilə əlaqə saxlamışdır. İnqilabçılarla əlaqəsini öz "Oliviya Letem" romanında təsvir etmişdir. Londona qayıtdıqdan sonra yenə inqilabi işlə məşqul olmuşdur. 1892-ci ildə Lilian Sibir sürgünündən Londona qaçmış Polşa inqilabçısı Voyniçə ərə gedir. Bundan sonra bədii yaradıcılıqla məşğul olur. 90-cı illərdən 1911-ci ilə qədər musiqi ilə məşğul olur. Sonra Amerikaya köçür və ömrünün axırına qədər orada yaşayır.

E.L.Voyniç ədəbiyyat tarixində məşhur,,Ovod" romanı ilə tanınmışdır. Bu romanında yazıçı İtaliya inqilabçı qadınların da həyatını qələmə almışdır. Əsərdə biz azadlıq uğrunda vuruşan inqilabçıları görürük.

Qərb dünyasında, o cümlədən ingilis ədəbiyyatında qadına münasibət probleminin əksi Con Qolsuorsinin (1867-1933) də yaradıcılığında geniş yer tutur. O, XX əsr ingilis tənqidi realizminin ən böyük nümayəndələrindən biri kimi ingilis ədəbiyyatında zəngin fəaliyətə malikdir. Qustav Flober, Gi de Mopassan, İvan Serqeyeviç Turgenev, Lev Tolstoy, Anton Pavloviç Çexov və başqaları onun sevdiyi yazıçılar idi. C.Qolsuorsi bədii yaradıcılıqda həyat gerçəkliklərinə, o cümlədən qadın taleyinə sadiq qalmağı, eyni zamanda tipik məsələlər seçməyi ədəbi prinsip kimi qəbul etmişdir. Lakin buradan belə nəticə çıxarmaq olmaz ki, C.Qolsuorsi təsvir etdiyi hadisələrə, qadınların taleyinə biganə olmamışdır, onlara qarşı öz münasibətini bildirmişdir. Onun yaratdığı obrazların, qadınların taleyi ilə yaxından maraqlandı. Onun əsərlərində biz həmişə qadına məhəbbətin, hörmətin üstün olduğunu görürük.

Yazıçının qadın məsələlərinə dair də özünəməxsus mülahizələri vardır. C.Qolsuorsini daha çox qadının cəmiyyətdə ictimai mövqeyi maraqlandırırdı. O, cəmiyyətin siniflərə parçalanmasını əbədi hesab etmiş, sinfi ziddiyyətlərin aradan qaldırılmasına isə inanmamışdır. Beləliklə, biz onun ictimai görüşlərində qadın mühafizəkarlığının əsas yer tutdutunu görürük. Lakin bədii yaradıcılıqda o, başqa cür hərəkət edirdi. Yəni çox vaxt yazıçı C.Qolsuorsi, siyasətçi C.Qolsuorsini qabaqlayırdı.

Con Qolsuorsi bədii əsərlərində sentimentalizmdən uzaq olmağa çalı-

şırdı. Eyni zamanda biz onun epik vüsətli əsərlərində lirik səhnələrin üstünlük təşkil etdiyini görürük. C.Qolsuorsi ideal qadın obrazı yaratmaqla oxucularının həm zehninə, həm ürəyinə təsir etməyi bacarırdı. Onun dili dəqiq, lakonikdir. Buna görə də, ədəbiyyatşünaslar C.Qolsuorsini səviyyəli üslubçulardan hesab edirlər.

Yaradıcılığının əsas problemi ingilis burjuaziyasının istinad nöqtəsinin süqutunun təsviridir. Bu durumda yaşayan qadının taleyindəki ziddiyyətləri önə gətirmişdir. Yazıçı burjua ailəsinin tənəzzülünü epik əsərlərində təsvir etmişdir. O, ailənin süqutu timsalında burjua cəmiyyətinin süqutunu vermişdir. C.Qolsuorsi burjua cəmiyyətində yaşayan qadınların xüsusiyyətçilik hissinə qapıldığını və bu hissin onları mənən müflisləşdirdiyini göstərmişdir. Yazıçı ustad bir sənətkar kimi bu prosesi də baş verən siyasi hadisələrlə bağlamış və beləliklə, ingilis cəmiyyətindəki bütün qüsurları - işsizliyi, parlament çəkişmələrini və s.-ni göstərmişdir.

Qadın taleyindəki ictimai ziddiyyətlərin düzəlməsinə inanmayan, ona şübhə ilə baxan sənətkarda ömrünün axırlarına yaxın da olsa, bir ümid əmələ gəlmişdi. O, deyirdi ki, cəmiyyətin qəddarlığına baxmayaraq, dünyanın işləri yaxşılığa doğru hərəkət edir.

C.Qolsuorsi bu yaxşılığa doğru getməni, qadın keyfiyyətindəki təkmilləşməni, onun xarakterinin kamilləşməsini təkamüllə əldə etməyin mümkünlüyünə inanırdı. Bu yolla təkamül vasitəsi ilə burjua cəmiyyətini dəyişdirməyi mümkün hesab edirdi. O, ictimai idrakın yenidən tərbiyə olunması və könüllü şəkildə xüsusi mülkiyyətdən imtina etmək yolu ilə sinfi ziddiyyətləri sahmana salmaq ümidində idi. Şübhəsiz, bu, C.Qolsuorsi dünyagörüşünün əsas məhdudiyyəti idi. Bütün bunlar onun yaradıcılığındakı yanlışlıqlardan irəli gəlirdi.

Yazıçının ilk əsərlərindən biri də "Rubeyn villası" romanıdır. Romanda qadının gözəllik duyğusu və xüsusiyyətçilik problemi verilmişdir. Hadisələr İsveçrədə cərəyan edir. Qəhrəman üsyankar ruhlu bir rəssamdır. O, burjuaziyanı sevmir. Bu əsərdə qadın saxta insanlarla qarşılaşır və öz emansipasiyasına daha çox inanır.

Bu əsərin bədii qüsurlarının az olmasına baxmayaraq yazıçının yaradıcılığında əsas yeri tutmur və "Fardiseyevlər adası" (1904) əsəri isə onunla müqayisədə daha kamildir. Əsərdə bütün imtiyazlara malik olan İngiltərə ilə tam hüquqsuzlaşmış İngiltərənin qarşı-qarşıya durduğunu görürük. C.Qolsuorsi xalq içindən çıxan qadının namuslu və təmiz olduğunu, dediyinə əməl etdiyini göstərir və bunu hakim dairələrin saxtakarlığından üstün tutur. Yazıçı göstərir ki, imtiyazlı sinfin qadınları isə eqoist, xudpəsənd və özlərindən razı adamlardır. Onlar özlərini zahirən nə qədər yüksək tutsalar da əslində kütləşmiş qadınlardır. Belə qadınlarda vicdan yoxdur, onların həssaslığı kütləşmişdir.

Əsərin əsas surəti zadəgan qızı gözəl Antoniya və onun sevgilisi Riçard Şelton - burjua ailəsindəndir. Şübhəsiz, mənsub olduğu sinfin xüsusiyyətləri Riçard Şeltonda vardır. Şelton Ferran adlı bir qızla tanış olur. Ferran zərif, ağıllı, həssas, öz halal zəhməti ilə dolanan bir qızdır. Cibində bir qəpik pulu

belə olmadıqda kədərlənmir. Belə bir qadınla tanışlıq Şeltonun xasiyyətini, əxlaqi keyfiyyətlərini dəyişdirir. O, zadəgan qızı gözəl Antoniyanı sevirdi. Onun nişanlısı idi. Ferranla tanışlıqdan sonra başa düşür ki, nişanlısı Antoniyanın gözəlliyi puçdur. Əslində o, cansız bir kukladır. Ona görə öz nişanlısından üz döndərir.

Şelton Ferranla tanışlıqdan sonra cəmiyyət məsələləri ilə maraqlanır, yoxsulların həyatını öyrənir və cəmiyyətdə olan bərabərsizliyi görür. Bunlarla yanaşı, mənsub olduğu sinfin kütlüyünü də dərk edir. O, anlayır ki, imtiyazlı sinfin nümayəndələri məhdud görüşlü insanlardır. Yazıçıya görə Şeltonun öz sevgilisindən üz döndərməsi onun mənsub olduğu sinifdən üz döndərməsi demək idi.

Qeyd etmək lazımdır ki, ingilis ədəbiyyatında fəhlə sinfini ilk dəfə dramaturgiyaya gətirən C.Qolsuorsi olmuşdur. Proletariatın hegemonluğuna heç vaxt inanmayan yazıçı bu əsərində fəhlə qadınların qəhrəman surətini yaratmışdır.

Bütün bunlarla yanaşı, müəllif əsərin axırında yenə barışdırıcılığa gəlib çıxmışdır. Pyesin sonunda hər iki tərəf güzəştə gedir. Üsyan sazişlə qurtarır.

C.Qolsuorsi ictimai-psixoloji xarakterlər və səhnələr yaratmaq ustasıdır. Bu cəhətdən onun yaradıcılığında "Forsaytlar dastanı" adlı romanlar silsiləsi və epopeyası mühüm yer tutur. Dastan üç trilogiyadan –"Forsaytlar dastanı" (1906-1920), "Müasir məzhəkə" (1924-1928) və "Fəsillərin sonu" (1931-1934) ibarətdir. Bu romanlar silsiləsinə bir neçə novella da daxildir. Həmin novellalar məzmun etibarı ilə romanlarla bağlıdır, bir növ onları tamamlayır. Buraya "Forsaytın xilası" (1900) və "Forsaytlar birjasında" (1930) adlı novellalar silsiləsi daxildir.

"Forsaytlar dastanı" bir ailənin tarixi, eyni bir sinfin tarixidir. C.Qolsuorsi XIX əsrin ortalarından başlayaraq həyat səhnəsinə gələn bir burjua ailəsinin tarixini əsrimizin 30-cu illərinə qədər izləyir. Yazıçı həmin nəslin, yaxud sinfin yaranmasını, inkişafını, süqutunu təsvir edir. Sənətkar geniş həyat lövhələri yaradır və bir ailənin timsalında böyük ictimai ümumiləşdirmələr verir. Forsaytların tarixi fərdi bir hadisə deyil, forsaytlar ingilis burjuaziyasını təmsil edirlər.

Fikrimizcə, yazıçı əsərlərində ictimai ziddiyyətləri barışdırmağa çalışsa da, bunun mümkün olmayacağını başa düşür və etiraf edir. Çünki bu romanlar yazılanda, doğrudan da, burjuaziya artıq öz dövrünü keçirmişdi.

"Fəsillərin sonu" trilogiyasında C.Qolsuorsinin satirik qələmi artıq zəifləyir. Forsaytlardan olan Maykl real cizgilərini itirir. Biz onu əsərdə görmürük. Onun barəsində Flyorun danışdıqlarından məlumat alırıq. Flyorun özü də atasının dediklərinə əməl edərkən ənənələrə sadiq qalır: nümunəvi ailə qadını, ana olur, ailəsində ahəngdarlıq yaradır.

Forsaytlar silsiləsinin əvvəlində İren bu nəsldə yad kimi görünürdü. Ancaq sonrakı əsərlərdə həmin fərq aradan qalxır.

ƏDƏBİYYAT
1. James Aldridge. The Problem of Honest. 1940. N.Y, P.MC, p. 167.
2. James Aldridge. The Problem of Honest. 1970. N.Y, P.MC, p. 267.
3. John Galswothy. (The Essays) Three Volumes, N.Y., 1975, p.42.
4. The Selected Letters of V.Woolf.Congenial Spirits, N.Y., 1974, 120 p.
5. John Galswothy. A Moment's Liberty, N.Y., 1965, 145.
6. John Galswothy The Hogarth Press, 1965, 245 p.
7.Maria Lord.China.2010.The Story of Literature. From Antiquity to the Present.216p.
8.Shaw Bernard. Four plays .1952.M.,Publishing house, 355 P.
9.R.Majumdar and a Mclaurin, Routledge and Kegan Paul. The Critical Heritage. London, 1975, 466 p.
10. James Aldridge. The Diplomat (, Penguin Modern Classics, Hogarth Press. 1949, 466 p.
11. Witgenstein L.Philosophical Investigations. Oxford. N.Y., 1963, 159 p.

ПРОБЛЕМА ЖЕНЩИНЫ В ЕВРОПЕЙСКОЙ ЛИТЕРАТУРЕ

Ф.С.ЗУЛЬФУГАРОВА

РЕЗЮМЕ

В статье говорится о социальной проблеме женщины в английской литературе. Широкое место занимает проблема отношения к женщине в творчестве английского писателя Джона Голсуорси жившего в первой половине XX в. Он писал о социальной, общественно-политической и научно-философской жизни людей Великобритании. Большинство этих проблем было посвящено женщине. В статье также были задеты типологические связи английской литературы.

Ключевые слова: Запад, женщина, социальная проблема, английская литература, Восток

THE PROBLEM OF WOMAN IN EUROPEAN LITERATURE

F.S.ZULFUGAROVA

SUMMARY

The article deals with the social problem of woman in English literature. It studies the beginning of the XX century on the basis of the works by John Galswothy. His plays played an enormous role in social, moral and literary life of Great Britain. The problem of woman in European literature is a very modern and important problem in our life.

The problem of woman and her social life, psychological freedom, feminist actions are discussed in chronological order in the article.

Key words: West, woman, social, problem, English literature, East